# Yeni Azərbaycan Partiyasının təsis olunmasının ildönümü qeyd olunub

Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 27-ci ildönümü Qəbələ rayonunda təntənə ilə qeyd olunub.

Noyabr ayının 21-də Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı idarə heyətinin, şurasının üzvləri, partiya veteranları, fəallar, qadınlar və gənclər təşkilatlarının üzvləri Heydər Əliyev Parkına gələrək burada Yeni Azərbaycan Pariyasının qurucusu, ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzmüş, dahi rəhbərin xatirəsinə ehtiramlarını nümayiş etdirmişlər.



Yeni Azərbaycan Partiyası Rayon Təşkilatının qərargahında davam edən tədbirdə təşkilatın sədri Abil Ağasəfov toplantı iştirakçılarını, bütün YAP üzvlərini yubiley münasibətilə təbrik etmişdir. Rayon təşkilatının sədri çıxışında ulu öndər Heydər Əliyevin Yeni Azərbaycan Partiyasının təsis edilməsi və respublikada güclü siyasi qüvvəyə çevrilməsi yolundakı əvəzedilməz fəaliyyətindən danışmışdır.

Abil Ağasəfov qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev bütün sahələrdə olduğu kimi partiya quruculuğu sahəsində də Heydər Əliyev siyasi kursunu uğura davam etdirir. Bunun nəticəsidir ki, hazırda Yeni Azərbaycan partiyası nəinki ölkəmizdə, hətta bütün regionda ən güclü və nüfuzlu siyasi qüvvəyə çevrilmişdir.

Ölkəmizdə sosial-iqtisadi sahədə gedən inkişafda, quruculuq sahəsində nəhəng layihələrin reallaşmasında Yeni Azərbaycan Partiyası fəal iştirak edir.

Yeni Azərbaycan Partiyası veteranlarından Tahir Hacıyev, Rasim Nəbiyev, YAP rayon təşkilatı qadınlar şurasının sədri Arifə Bayramova, gənclər birliyinin sədri Anar Şirinov tədbirdə çıxış etmişlər.

**“Qəbələ”**

**İlkin Vəlizadə foto).**

# Peşə bayramlarını qeyd ediblər

Noyabrın 22-də Qəbələdə ədliyyə işçilərinin peşə bayramı qeyd olunub.

RİH başçısının birinci müavini Abil Ağasəfov və hüquq-mühafizə orqanlarının rəhbərləri rayon məhkəməsinin və vətəndaşların qeydiyyatı şöbəsinin kollektivi ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, ulu öndərin xatirəsini ehtiramla yad ediblər.

Tədbirdə Azərbaycanın ədliyyə və məhkəmə sisteminin yaranma və inkişaf tarixindən danışılıb, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkədə məhkəmə-hüquq islahatlarının uğurla aparıldığı, bu sahədə böyük nailiyyətlərin əldə olunduğu diqqətə çatdırılıb.

Çıxış edənlər son illər ədliyyə orqanlarının maddi-texniki bazasının gücləndirildiyini bildirib, ölkədə insan hüquqlarının müdafiəsi sahəsində görülən işləri yüksək qiymətləndiriblər.

**“Qəbələ”**

# Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi qısamüddətli kurslara başlayıb

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi qısamüddətli kurslara başlayıb.

Peşə təhsil mərkəzindən müxbirimizə bildirilib ki, kurslar elektrik-qaz qaynaqçısı, elektrik xətlərinin quraşdırılması və təmiri üzrə mütəxəssis, traktorçu-maşinist, mühafizəçi, çilingər-santexnik, dayə peşələrini əhatə edəcək.

Kursların müddəti 3 aydır, ödənişlidir.

# Bələdiyyə seçkiləri ilə bağlı treninqlər

2019-cu il dekabrın 23-də keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramı çərçivəsində müxtəlif statuslu seçki subyektləri üçün genişmiqyaslı layihələr davam etdirilir.

Bələdiyyə seçkiləri ilə bağlı iki mərhələli treninq layihəsi çərçivəsində noyabrın 26-dan Qəbələ “ASAN xidmət” Mərkəzində məntəqə seçki komissiyalarının üzvləri üçün treninqlərə başlanılıb.

Noyabrın 29-dək davam edən treninqlərdə seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, seçki günü müstəsna hallar, səslərin sayılması və səsvermənin nəticələrinə dair rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün seçki günü prosedurları barədə aydın və hərtərəfli məlumat verilib.

Gündəliyə uyğun olaraq treninqlərdə, həmçinin Mərkəzi Seçki Komissiyasının Treninq Qrupunun mütəxəssisləri tərəfindən seçki günü prosedurları, səsvermə hərəkətləri və baş verə biləcək müstəsna hallar praktiki məşğələlərin gedişində əyani formada iştirakçılara nümayiş etdirilib, müzakirələr aparılıb və onları maraqlandıran suallar cavablandırılıb.

Treninqlərin məntəqə seçki komissiyaları üzvlərini əhatə edən ikinci mərhələsində keyfiyyətin və səmərəliliyin daha da yüksəldilməsi məqsədi ilə treninq qrupu tərəfindən hazırlanan cədvəl əsasında kiçik qruplar şəklində - hər treninq sessiyasında 36 nəfərədək komissiya üzvü iştirak edib.

Treninqlər zamanı seçki komissiyalarının hər bir üzvünə istifadə etmək məqsədi ilə MSK tərəfindən hazırlanan ”Seçki günü üçün Yaddaş” kitabçası, səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri materiallar da təqdim olunub.

**“Qəbələ”**

# Müşavirə keçirilmişdir

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatında 23 dekabr bələdiyyə seçkiləri ilə əlaqədar müşavirə keçirilmişdir. Müşavirədə YAP rayon təşkilatının fəalları, Yeni Azərbaycan Partiyası rayon təşkilatı tərəfindən bələdiyyə seçkiləri ilə əlaqədar seçki dairələrinə və seçki məntəqələrinə təyin olunmuş müşahidəçilər, partiya tərəfindən bələdiyyə üzvlüyünə irəli sürülmüş namizədlər iştirak etmişlər.

Yeni Azərbaycan Partiyası Qəbələ rayon Təşkilatının sədri Abil Ağasəfov müşavirəni açaraq bildirmişdir ki, artıq bələdiyyə seçkilərinin mühüm-mərhələsi, təbliğat kampaniyası başlanmışdır. Yeni Azərbaycan Partiyası rayon təşkilatının fəalları, xüsusən bələdiyyə üzvlüyünə YAP tərəfindən irəli sürülmüş namizədlər təbliğat kompaniyasında böyük fəallıq nümayiş etdirməlidirlər. Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının fəalları və namizədləri seçicilərlə görüşlərində ölkəmizdə, o cümlədən rayonumuzda sosial-iqtisadi sahədə əldə edilən uğurlar barədə əhaliyə geniş məlumat verməlidirlər. Rayonumuzun bütün yaşayış məntəqələrində bu uğurlar nəzərə çarpır. Keçən bələdiyyə seçkilərindən bəri rayonumuzun onlarla qəsəbə və kəndinə mavi qaz xətti çəkilmiş, 50 kilometrdən artıq kəndlər arası yol yenidən qurularaq asfaltlanmışdır. Bununla birlikdə müşavirədə qeyd olunmuşdur ki, əvvəlki bələdiyyə seçkilərində bələdiyyəyə seçilmiş şəxslər yenidən YAP rayon təşkilatı tərəfindən namizəd göstərilmişsə təbliğat tədbirlərində ötən dövr ərzində gördükləri iş barədə də seçicilərə məlumat verməlidirlər.



YAP Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov sonda partiya tərəfindən təyin olunmuş müşahidəçilərin vəzifələri haqqında ətraflı danışmışdır. Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı tərəfindən bələdiyyə üzvlüyünə namizədlikləri irəli sürülmüş şəxslərin bələdiyyələr üzrə seçicilərlə zirvə görüşlərinin qrafiki elan olunmuşdur.

Müşavirə iştirakçılarının sualları cavabandırılmışdır.

**“Qəbələ”**

# İcbari tibbi sığortaya keçidlə əlaqədar tədbir

Məlumdur ki, 2020-ci ilin 1 yanvar tarixindən başlayaraq ölkəmizdə “İcbari tibbi sığorta” haqqında Azərbaycan Respublikasının Qanununun tətbiqinə başlanacaq. Bu münasibətlə əhalinin maarifləndirilməsi tədbirləri davam edir. Dekabrın 6-da Qəbələ Mədəniyyət Mərkəzində “İcbari tibbi sığorta” haqqında Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar növbəti maarifləndirmə tədbiri keçirilmişdir.



Tədbiri giriş sözü ilə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova açmışdır. İcbari tibbi sığortanın böyük sosial əhəmiyyət daşıdığını vurğulayan Ətayə Osmanova bildirmişdir ki, 2020-ci ilin yanvarın 1-dən bu mühüm sosial layihənin həyata keçirilməsinə başlanacaqdır. Birinci növbədə icbari tibbi sığortanın tətbiqinə başlanacaq 20 rayondan biri də Qəbələdir.

Qəbələ Rayon Mərkəzi Xəstəxanası baş həkiminin müavini Cavanşir Məlikov, müalicə diaqnostika mərkəzinin baş həkimi Ceyhun Əhmədov icbari tibbi sığortaya keçidlə əlaqədar rayonun səhiyyə müəssisələrində görülmüş işlər barədə tədbir iştirakçılarına məlumat vermişlər. Bildirmişlər ki, Respublika Səhiyyə Nazirliyinin və rayon icra hakimiyyətinin yaxından dəstəyi ilə rayonda səhiyyə müəssisələri icbari tibbi sığortanın tətbiqinə tam hazır vəziyyətə gətirilmişdir.

Çıxış edənlər icbari tibbi sığortaya keçidlə əlaqədar bir daha vətəndaşların üzərinə düşən vəzifələri xatırlatmışdır.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin məsul işçisi Elvin Abbasov icbari tibbi sığortaya keçidin sosial əhəmiyyətindən danışmış, “İcbari tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununda Milli Məclis tərəfindən edilən dəyişikliklərin mahiyyətini açıqlamışdır. Elvin Abbasov icbari tibbi sığorta haqlarının miqdarı barədə tədbir iştirakçılarını məlumatlandırmış, sığortalıların hansı xidmətlərdən istifadə edə biləcəklərini izah etmişdir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

Tədbiri rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova yekunlaşdırmışdır.

**“Qəbələ”**

# Beynəlxalq Əlillər Günü münasibətilə

Dekabrın 2-də Heydər Əliyev Mərkəzində Qəbələ Rayon İcra Hakimiyyətinin, uşaq və ailələrə dəstək mərkəzinin və Qəbələ regional “ASAN xidmət” Mərkəzinin birgə təşkilatçılığı ilə 3 dekabr - Beynəlxalq Əlillər Günü münasibətilə tədbir keçirilib.

RİH-nin məsul işçisi Absalam Hüseynov, təhsil şöbəsinin müdiri Arifə Bayramova, uşaq və ailələrə dəstək mərkəzinin direktoru Günel Ağayeva, Qəbələ “ASAN xidmət” Mərkəzinin əməkdaşı Şahlar Eyyubov, Qızıl Aypara Cəmiyyətinin rayon bölməsinin sədri Sədaqət Bayramova və başqaları çıxış edərək Azərbaycanda Beynəlxalq Əlillər Gününün rəsmi şəkildə ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra qeyd olunmağa başlandığı diqqətə çatdırıblar. Qeyd olunub ki, bu gün cəmiyyətimizin bütün təbəqələrinə, o cümlədən əlil vətəndaşlara diqqət və qayğı göstərilir. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə mütəmadi olaraq bu kateqoriyalardan olan insanların müavinətləri artırılır, onların sosial problemləri həll edilir, mənzil şəraiti daha da yaxşılaşdırılır.

Natiqlər bildiriblər ki, ölkəmizin hər yerində olduğu kimi, Qəbələ rayonunda da əlillər diqqət və qayğı ilə əhatə olunub.

Uşaq və Ailələrə Dəstək Mərkəzində təlim alan uşaqların və incəsənət məktəbi şagirdlərinin birgə hazırladıqları maraqlı konsert proqramı ilə davam edən tədbirin sonunda uşaqlara hədiyyələr təqdim edilib.

**“Qəbələ”**